## *Məlumat

Azərbaycan Respublikasının bütün sərhəd keçid məntəqələrində gömrük xidməti fəaliyyət göstərir (aeroportlar, dəniz limanları, avtomobil və dəmiryolu keçid məntəqələri).

Gömrük xidməti əməkdaşlarının xüsusi geyim forması və tanınma nişanları vardır. (Gömrük orqanlarının bayrağı və tanınma nişanları).





Azərbaycan Respublikasının Gürcüstan, Rusiya, Türkiyə və İranla sərhədlərində keçid məntəqələri fəaliyyət göstərir.

Həmçinin, Qazaxıstan, Türkmənistan, Rusiya və İran ilə dəniz sərhədləri vardır, Türkmənistan və Qazaxıstanla parom vasitəsi ilə gediş-gəliş mövcuddur.

Sərhəd keçid məntəqələrində yaşıl və qırmızı kanaldan istifadə edilir.




** Daha geniş məlumatı sərhəd keçid məntəqələrində fəaliyyət göstərən gömrük orqanlarından almaq olar.*

### 1. Fiziki şəxslər Azərbaycan Respublikasının gömrük sərhədindən keçərkən:

Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar, o cümlədən dövlət orqanlarının nəzarət siyahılarına aid edilməyən mallar sadələşdirilmiş qaydada bəyan edilir.

Sadələşdirilmiş qaydada bəyanetmə yaşıl kanaldan istifadə etməklə konkludent formada yazılı bəyannamə təqdim edilməməyi nəzərdə tutur.

Üz tərəfi



GÖMRÜK BƏYANNAMƏSİ

* 16 Yaşına çatmış hər bir şəxs tərəfindən doldurulur.
* Lazımi cavab uyğun damada bu qayda ilə ☒ işarələnir.
* Müvəqqəti giriş (çıxış) müddətinin sonuna kimi saxlanılır və qayıdanbaş gömrük orqanlarına təqdim olunur. İtirildikdə bərpa olunmur.

☐ giriş ☐ çıxış ☐ tranzit

1. Şəxs haqqında məlumat:

soyadı ______ adı ______ atasının adı ______

daimi yaşadığı ölkə ______ vətəndaşlığı ______ pasport seriya ______ № ______

hansı ölkədən gəlib (yola düşdüyü ölkə göstərilir) ______ hansı ölkəyə gedir (təyinat ölkəsi göstərilir) ______

Mənimlə həddibuluğa çatmamış uşaqlar var ☐ hə ☐ yox sayı ______

2. Baqaj haqqında məlumat
2.1. Əl yükü də daxil olmaqla müşaiyət olunan baqaj ☐ hə ☐ yox
Yerlərin sayı ______
2.2. Müşaiyət olunmayan baqaj (yük müşaiyətedici sənədlər üzrə) ☐ hə ☐ yox
Yerlərin sayı ______

3. Mallar haqqında məlumat:
Mənim üstümdə və baqajımda bəyannaməyə mütləq daxil edilməsi tələb olunan və sərhəddən keçirilməsi müvafiq səlahiyyətli orqanlar tərəfindən verilmiş icazə sənədləri üzrə həyata keçirilən mallar var: ☐ hə ☐ yox
3.1. Hər növdə və vəziyyətdə nəğd milli və başqa valyuta, valyuta sərvətləri, qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış məmulatlar.

| Valyutanın, sərvətlərin və ya məmulatın adı | Miqdarı/sayı | |
|---|---|---|
| | Rəqəmlə | Sözlə |
| | | |
| | | |
| | | |
| | | |

3.2. Hər növ silah, sursat, partlayıcı maddələr ☐ hə ☐ yox
3.3. Narkotik və psixotrop maddələr ☐ hə ☐ yox
3.4. Qədim əşyalar və sənət əsərləri ☐ hə ☐ yox
3.5. Çap məhsulları və başqa informasiya daşıyıcıları ☐ hə ☐ yox
3.6. Zəhərləyici və güclü təsirə malik maddələr və dərmanlar ☐ hə ☐ yox
3.7. Radioaktiv maddələr ☐ hə ☐ yox
3.8. Flora və fauna obyektləri, onların hissələri və onlardan alınan məhsullar ☐ hə ☐ yox
3.9. Yüksək tezlikli radioelektron qurğular və rabitə vasitələri ☐ hə ☐ yox
3.10. Gömrük ödənişləri tutulmalı olan mallar ☐ hə ☐ yox
3.11. Müvəqqəti aparılan (gətirilən) mallar ☐ hə ☐ yox
3.12. Nəqliyyat vasitələri ☐ hə ☐ yox

* Gömrük nəzarəti məqsədilə 3.2 - 3.12 bəndlərində göstərilən mallar mövcud olduqda, həmin mallar haqqında ətraflı məlumatın, bəyannamənin arxa tərəfinin 4-cü bəndində, göstərilməsi zəruridir.

Arxa tərəfi



4. Mallar haqqında məlumat:
4.1. 3.2. - 3.11 maddələrində göstərilən mallar haqqında məlumat

| №№ | Malın adı və digər fərqləndirici əlamətləri, icazə sənədinin verilmə tarixi və nömrəsi, sənədi verən orqan | MİQDARI | | Milli valyuta və ya ABŞ $ ilə dəyəri |
|---|---|---|---|---|
| | | Rəqəmlə | Sözlə | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | Ümumi dəyəri (yekun) | |

4.2. Nəqliyyat vasitəsi haqqında məlumat:

Növü, markası ____________ istehsal ____________ Mühərrikin həcmi ($sm^3$) ____________
Şassi №-si ____________ Banın №-si ____________ Mühərrikin №-si ____________
Gömrük rejimi: gətirilmə ☐ müvəqqəti gətirilmə ☐ geri qaytarılma ☐
aparılma ☐ müvəqqəti aparılma ☐ geri aparılma ☐

Bəyannamədə yanlış məlumat göstərməklə mövcud qanunvericiliyə uyğun məsuliyyət daşıyacağım mənə məlumdur
"____" ____________ ________ il Şəxsin imzası ____________

Xidməti qeydlər:

M.Y.

-konklyudent bəyanetmə forması fiziki şəxslər tərəfindən müşayiət olunan baqajda və əl yükündə keçirilən mallara şamil edilir, o şərtlə ki:

- Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların miqdarı və dəyəri (müşayiət olunmayan baqajlar istisna olmaqla) həmin malların gömrük ödənişləri alınmadan keçirilməsinə yol verilən miqdar və dəyərindən artıq olmasın;

- həmin mallara qadağalar və ya məhdudiyyətlər qoyulmasın .

- Gömrük ödənişlərinə cəlb olunan mallar olduqda isə həmin mallar yazılı formada bəyan edilməli və “Qırmızı kanal”dan istifadə edilməlidir .

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən əşyalar sərhəd keçid məntəqələrində gömrük orqanlarına bəyan edilir

Bəyannamə Azərbaycan, ingilis ( rus) dillərində doldurulur, gömrük orqanının icazəsi ilə isə gömrük orqanının vəzifəli şəxsinin bildiyi başqa dillərdə də doldurula bilər.

Bəyannamə 16 yaşına çatmış fiziki şəxs tərəfindən doldurulur. 16 yaşına çatmamış fiziki şəxslərin malları haqqında məlumat onları müşayiət edən şəxslərin bəyannaməsində göstərilir. Bəyannamədə mallar haqqında məlumatlar öz əksini tapmalıdır.

Sərhədyanı rayonlarda yaşayan fiziki şəxslər, yəni Azərbaycan Respublikasının vətəndaşları, vətəndaşlığı olmayan və xarici vətəndaşlar tərəfindən Azərbaycan Respublikasının gömrük buraxılış postlarından istehsal və kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan mallar şəxsi nəqliyyat vasitəsi ilə eyni bir şəxs tərəfindən müntəzəm (daimi) olaraq keçirilən mallara dövrü gömrük bəyannaməsi yazılır.

2. **Fiziki şəxslər istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan aşağıdakı malları gömrük ödənişləri ödəmədən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirə bilərlər.**

a) ümumi dəyəri 1000 ABŞ dollarına ekvivalent və ya çəkisi 50 kiloqramdan artıq olmayan mallar;

b) beynəlxalq poçt göndərişləri vasitəsi ilə ümumi dəyəri 200 ABŞ dolları ekvivalent və ya çəkisi 20 kiloqramdan artıq olmayan malları aldıqda (göndərdikdə);

v) xarici vətəndaşlar daimi yaşayış məqsədi ilə Azərbaycan Respublikasına köçüb gələrkən və ya Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikasından köçüb gedərkən 20.000 ABŞ dolları ekvivalent həcmində ailə üçün zəruri olan məişət əşyalarını;

q) zəruri ehtiyacların ödənilməsi üçün şəxsi əşyaları müvəqqəti olaraq gətirdikdə (apardıqda);

d) Azərbaycan Respublikasının gömrük ərazisindən 125 qrama qədər nərə cinsli balıq kürüsünü;

e) fərdi istehlak üçün 3 litr alkoqollu içkini;

ə) 3 blok siqareti;

z) avtomobilin bakında texniki pasportu ilə nəzərdə tutulmuş miqdarda yanacağı;

**3. Fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması Qaydaları:**

- Rezidentlər tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilmiş valyuta sərvətlərinin məbləği 10.000 ABŞ dolları ekvivalentinədək olduqda "Sərnişin gömrük bəyannaməsi" ilə, 10.000 ABŞ dolları ekvivalentindən yuxarı olduqda isə "Sərnişin gömrük bəyannaməsi" və " Gömrük vəsiqəsi" ilə rəsmiləşdirilir.

-Rezidentlər tərəfindən adambaşına 10.000 ABŞ, qeyri-rezidentlər isə 1000 ABŞ dolları ekvivalenti məbləğdə valyuta sərvətləri (fond sərvətləri istisna olmaqla) sənəd təqdim edilmədən, gömrük orqanlarına bəyan edilməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxarıla bilər.

- Rezidentlər və qeyri-rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş valyuta sərvətlərindən 50.000 ABŞ dolları ekvivalentinədək məbləği müvafiq təsdiqedici sənədlər əsasında gömrük orqanlarında bəyan etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara bilərlər.

**4. Müvafiq dövlət orqanlarının razılığı ilə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar**.

- xidməti və mülki silah, onların döyüş sursatları Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin xüsusi icazəsi təqdim edilməklə keçirilə bilər.

-dini təyinatlı ədəbiyyatlar, əşyalar və dini məzmunlu başqa məlumat daşıyıcıları Dini qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə keçirilə bilər.

- əlillər üçün xüsusi olaraq hazırlanmış avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olmasına Azərbaycan Respublikası Əmək və Əhalinin Müdafiəsi Nazirliyinin təsdiqedici sənədi olduğu təqdirdə gömrük ödənişləri alınmadan icazə verilir.

- sənədli abidələr elmi-təbliğat və mədəni mübadilə məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin icazəsi ilə Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparıla bilər.

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mühafizə siyahısına daxil edilmiş mədəniyyət sərvətləri xüsusi rejim əsasında verilmiş mühafizə dərəcəsinə müvafiq surətdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ixracın mümkünlüyü barədə verdiyi şəhadətnamə Azərbaycan Respublikasının gömrük orqanına təqdim edildiyi və komissiyon dəyərinin 100 faizi məbləğində gömrük rüsumu ödənildikdən sonra, mühafizə dərəcəsi verilməmiş mədəniyyət sərvətləri isə sərbəst surətdə Azərbaycan Respublikasının gömrük ərazisindən aparıla bilər.

- ölmüş şəxslər, tabutdakı meyitlər və urnadakı küllər Azərbaycan Respublikasından aparılarkən Azərbaycan Respublikasında vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirən orqanlar tərəfindən "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"na müvafiq olaraq verilən ölüm haqqında şəhadətnamə və ya onun notariat qaydada təsdiq edilmiş surəti (zərurət olduqda sanitariya-epidemioloji orqanların rəyi və qəbul edən ölkənin qanunvericiliklə tələb olunan digər sənədlər), Azərbaycan Respublikası ərazisinə gətirilərkən və ya tranzit keçirilərkən isə göndərən ölkənin səlahiyyətli orqanı tərəfindən verilmiş ölüm haqqında

şəhadətnamə və ya onun surəti gömrük orqanına təqdim edilərkən icazə verilir.

- mülki silahın nadir nüsxələrinin "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasından aparılması Azərbaycan Respublikasının mədəniyyət və Turizm Nazirliyinin razılığı ilə Daxili İşlər Nazirliyinin xüsusi icazəsi əsasında həyata keçirilir.

- Azərbaycan Respublikasının muzey fonduna daxil olan silahlar və onların döyüş sursatları Azərbaycan Respublikasından müvafiq sərgilərin təşkili və keçirilməsi məqsədilə Daxili İşlər Nazirliyinin razılığı ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin xüsusi icazəsi əsasında müvəqqəti olaraq aparıla bilər.

- heyvanlar, baytarlıq təbabətində tətbiq olunan dərman, bioloji preparatlar və baytarlıq ləvazimatları, bitkilər, heyvan və bitki mənşəli xammal Azərbaycan Respublikasının gömrük sərhədindən dövlət baytarlıq və dövlət fitosanitar nəzarəti xidmətlərinin müvafiq sənədi olduqda keçirilə bilər.

**5. Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qadağan olunan mallar.**

Gətirilməsi və poçt göndərişləri vasitəsi ilə alınması qadağan olunmuş mallar:

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə dövriyyəsi qadağan olunmuş xidməti və mülki silahlar, hərbi təyinatlı bütün əşyalar, partlayıcı maddələr, hərbi texnika;

- radioaktiv maddələr ;

narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, onlardan istifadə üçün ləvazimat;

- əxlaq pozğunluğunu, zorakılığı, terrorizmi təbliğ və reklam edən materiallar;

- narkotik vasitələrin, psixotrop, zəhərləyici, partlayıcı maddələrin hazırlanması texnologiyasına aid materiallar;

Aparılması və beynəlxalq poçt göndərişləri vasitəsi ilə göndərilməsi qadağan olunmuş mallar:

- aparılmasına və ya göndərilməsinə, gətirilməsinə və ya alınmasına Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin icazəsi olmayan zooloji kolleksiyalar, onların hissələri və ya ayrı-ayrı obyektləri, o cümlədən heyvanlar aləmi obyektləri;

- qiymətli ağac cinsləri (qoz, şabalıd, cökə, palıd, fıstıq, dəmir ağacı);
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə dövriyyəsi qadağan olunmuş xidməti və mülki silahlar, hərbi təyinatlı bütün əşyalar, partlayıcı maddələr, hərbi texnika;
- radioaktiv maddələr;
- narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, onlardan istifadə üçün ləvazimat;
- əxlaq pozğunluğunu, zorakılığı, təbliğ və reklam edən materiallar;
- narkotik vasitələrin, psixotrop, zəhərləyici, partlayıcı maddələrin hazırlanması texnologiyalarına aid materiallar;
- xüsusi məxfi rabitə vasitələri, onların şifrləri və istismarı haqqında ədəbiyyat;
- Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyinin operativ istintaq fəaliyyəti üzrə informasiya sistemləri, sənədləri və arxivləri;
- dövlət əhəmiyyətli sənədlər, ixtiralar, layihələr;
-Azərbaycan Respublikasının Qırmızı Kitabına düşmüş nadir bitkilər, maral və cüyür buynuzları;
- müvəqqəti sərgi, qastrol səfərləri, bərpa işləri, prezentasiya, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi halları istisna olmaqla Azərbaycan Respublikasının milli mədəniyyət əmlakı Dövlət Siyahısına daxil olan milli mədəniyyət əmlakı olan obyektlər;
- məlumat daşıyıcılarının məzmununun oxunması halı mümkün olmadıqda, onlar Azərbaycan Respublikasının gömrük sərhədindən buraxılmır

Silah və onun döyüş sursatlarının fiziki şəxslər tərəfindən göndərilməsinə yol verilmir. Odlu silah və onun döyüş sursatının poçt vasitəsi ilə göndərilməsi qadağandır;

**6. Azərbaycan Respublikası gömrük sərhədindən keçirilən nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi Qaydaları:**

- daimi yaşayış məqsədilə köçüb gələn fiziki şəxslər tərəfindən yalnız XİFƏN- nin 8703 mal qrupuna aid edilən ailə üçün nəzərdə tutulan bir nəqliyyat vasitəsi gömrük rüsumu ödənilmədən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilə bilər.

- sükanı sağ tərəfdə olan nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına gətirilməsi qadağandır.

- xarici dövlətlərdə daimi qeydiyyatda olmayan (və ya qeydiyyatdan çıxarılmış) nəqliyyat vasitələrinin rezident və ya qeyri-rezident fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti olaraq gətirilməsinə icazə verilmir.

- xarici dövlətlərin daimi qeydiyyatında olan bütün növ nəqliyyat vasitələrinin rezidentlər tərəfindən müvəqqəti olaraq Azərbaycan Respublikasının gömrük ərazisinə sərbəst dövriyyə üçün buraxılış rejiminə uyğun gömrük ödənişləri həcminə ekvivalent məbləğdə pul vəsaiti sərhəd buraxılış məntəqəsində fəaliyyət göstərən gömrük orqanlarında depozit hesaba qoyulmaqla, 1 (bir) ildən artıq olmayan müddətə və nəqliyyat vasitəsinin geriyə aparılması haqqında öhdəlik alınmaqla gömrük rəsmiləşdirilməsi həyata keçirilir və qeydiyyata alınması üçün gömrük vəsiqəsi yazılır və nəqliyyat vasitəsinin müvəqqəti müddəti artırılmır;

- xarici dövlətlərin daimi qeydiyyatından çıxarılmadan Azərbaycan Respublikasına 30 (otuz) gün müddətə müvəqqəti gətirilən XİFƏN-nin 8703 mal qrupuna aid edilən nəqliyyat vasitələri qeyri-rezident fiziki şəxslərin bilavasitə özləri tərəfindən gətirildikdə depozit hesaba pul vəsaiti qəbul edilmədən və nəqliyyat vasitəsini keçirən şəxsdən nəqliyyat vasitəsinin geriyə aparılması haqqında öhdəlik alınaraq, sərhəd gömrük orqanında qeydiyyata alınmaqla gömrük orqanı tərəfindən rəsmiləşdirilir.

- Azərbaycan Respublikası gömrük ərazisinə müvəqqəti gətirilərək DYP orqanlarında qeydiyyata alınmış nəqliyyat vasitəsi, müvəqqəti gətirilmə müddəti ərzində gömrük orqanı qarşısında öhdəlik götürmüş fiziki şəxs tərəfindən həmin nəqliyyat vasitəsi üzrə əlavə öhdəlik verilmədən, nəqliyyat vasitəsi qeydiyyatdan çıxarılmadan və alınmış depozit məbləği qaytarılmadan sərhəd buraxılış məntəqəsində fəaliyyət göstərən gömrük orqanında qeydiyyatı aparılmaqla gömrük sərhədindən keçirilə bilər.

- müvəqqəti vəsiqə əsasında idarə olunaraq, hərəkət edən nəqliyyat vasitəsinin onu keçirən şəxs tərəfindən gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanına çatdırılma müddəti 72 saatdan gec olmayaraq müəyyən edilir.

**7. “Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən xidməti və mülki silahların, onların döyüş sursatlarının gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti Qaydaları “**

- Fiziki şəxslər tərəfindən mülki silahların, onların döyüş sursatlarının Azərbaycan Respublikasına gətirilməsinə verilən xüsusi icazənin etibarlılıq müddəti altı aydır.

-xidməti və mülki silah, onların döyüş sursatları Azərbaycan Respublikasının gömrük ərazisinə rezidentlər tərəfindən gətirilə bilər.

- qeyri-rezidentlər tərəfindən mülki silah Azərbaycan Respublikasına yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada silah sərgisində və ya idman yarışlarında istifadə edilməsi və ov edilməsi məqsədilə müvəqqəti gətirilə bilər.

- Xidməti və mülki silahlara dair Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin verdiyi xüsusi icazə etibarnamə ilə başqa fiziki və ya hüquqi şəxsə verilə bilməz.

- qeyri-rezidentlər vətəndaşı olduğu dövlətlərin nümayəndəliyinin vəsatətinə əsasən Daxili İşlər Nazirliyi tərəfindən verilmiş xüsusi icazəsi əsasında alındığı vaxtdan beş gündən gec olmayaraq Azərbaycan Respublikasının gömrük ərazisindən kənara çıxartmaq şərti ilə mülki silahları, onların döyüş sursatlarını əldə edə

bilərlər. Alınan silahların və onların döyüş sursatlarının Azərbaycan Respublikasının ərazisindən aparılma müddəti pozularsa, həmin silah və döyüş sursatları müsadirə olunur.

**8. Mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi Qaydaları:**

- Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mədəniyyət sərvətləri gömrük orqanına mütləq yazılı formada bəyan edilməlidir.

- milli mədəniyyət əmlakı olan sərvətlər Azərbaycan Respublikasının gömrük ərazisindən kənara, yalnız müvəqqəti sərgi, qastrol səfərləri, prezentasiya, bərpa işləri və beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi zamanı bir qayda olaraq il ərzində altı aydan çox olmamaq şərti ilə buraxılır.

- milli arxiv fonduna daxil olan sənədlərin orijinalları və ya onları əvəz edən nüsxələri müəyyən olunmuş qaydada ən çoxu üç ay müddətində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıla bilər.

- Azərbaycan Respublikasının gömrük sərhədindən mədəniyyət sərvətlərini müvəqqəti keçirən şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada gömrük orqanına onların geri qaytarılması haqqında öhdəlik təqdim etməlidir.